<table>
<tr><td rowspan="8">Ümumi məlumat</td><td>Fənnin adı, kodu və kreditlərin sayı</td><td>AZLL106 Azərbaycan dilində işgüzar və akademik kommunikasiya, 3 kredit 6 AKTS</td></tr>
<tr><td>Departament</td><td>Dillər və ədəbiyyatlar</td></tr>
<tr><td>Proqram (bakalavr, magistr)</td><td>Bakalavr</td></tr>
<tr><td>Tədris semestri</td><td>2025/2026-cı tədris ilinin payız semestri</td></tr>
<tr><td>Fənni tədris edən müəllim (lər)</td><td>Fil.ü.f.d. Almaz Bədəlova</td></tr>
<tr><td>E-mail:</td><td>Doctorant@live.com</td></tr>
<tr><td>Mühazirə otağı/Cədvəl</td><td></td></tr>
<tr><td>Konsultasiya vaxtı</td><td>Tələbələr ilə razılaşdırılmış vaxtda</td></tr>
<tr><td>Prerekvizitlər</td><td colspan="2">Yoxdur</td></tr>
<tr><td>Tədris dili</td><td colspan="2">Azərbaycan dili</td></tr>
<tr><td>Fənnin növü (məcburi, seçmə)</td><td colspan="2">Məcburi</td></tr>
<tr><td>Dərsliklər və əlavə ədəbiyyat</td><td colspan="2">Əsas dərsliklər:<br><br>• Məmmədli Nadir. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Dərslik. Bakı, “Elm və təhsil”, 2021.<br>• Xəlilov Buludxan. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya.Bakı, “Adiloğlu” nəşriyyatı, 2021<br>• Babayev A. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı, “Elm və təhsil”, 2011, 620 səh<br><br>Əlavə ədəbiyyat<br><br>Abdullayev Nadir. Nitq mədəniyyətinin əsasları. Bakı, “Elm və təhsil”, 2014.<br>Allan və Barbara Piz. Bədən dili haqqında mükəmməl kitab. Bakı, “Qanun” nəşriyyatı, 2016.<br>Aristotel. Ritorika. Birinci kitab. İkinci kitab. Üçüncü kitab. Bakı, “Turan” nəşriyyatı, 2008.<br>Cəfərov Nizami, Mərdanova Samirə, Qəribli Aysel. Azərbaycan nitq mədəniyyəti. Bakı, “Şərq-Qərb”, 2018.<br>Cəfərov Vəliyulla. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Dərs vəsaiti. Bakı, 2021.<br>Deyl Karnegi. Dostları necə qazanmalı və insanlara necə təsir etməli. Bakı, “Qanun” nəşriyyatı, 2019.<br>Eminli Böyükxanım, Paşayeva Günel. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Dərs vəsaiti. Sumqayıt, SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2021.<br>İsmayılova Mahirə. Azərbaycan dilində akademik kommunikasiyanın aktual problemləri. Bakı, ADPU, 2022.<br>Nəzəroğlu Cəlalə. Danışığınla həyatı qazan. Bakı, “TEAS press”, 2020.<br>Şiriyev Fikrət. Azərbaycan dilinin nitq mədəniyyəti və kommunikasiya. Dərs vəsaiti. Bakı, “Elm və təhsil”, 2020.<br><br>İnternet resursları:</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| | http://www.korpus.azerbaycandili.az/Vocabularies/Download/6022/Orfoqrafiya_15.03.2021.pdf<br>https://e-qanun.az/framework/47674<br>https://nk.gov.az/az/documents/1/ (Qərarlar)<br>https://nk.gov.az/az/documents/7/ (Sərəncamlar)<br>https://azertag.az/ | | |
| **Tədris metodları** | Təqdimat | + | |
| | Mühazirə | + | |
| | Müzakirə | + | |
| | Sual-cavab | + | |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | Aralıq imtahanı | | 30 |
| | Fəallıq | | 5 |
| | Davamiyyət | | 5 |
| | Tapşırıqlar | | 5 |
| | Quizlər | | 15 (5+5+5) |
| | Final imtahanı | | 40 |
| | Yekun | | 100 |
| **Kursun təsviri** | Kurs Azərbaycan dili haqqında ümumi məlumat, kommunikasiya, kommunikasiyanın tipləri, Azərbaycan dilinin fonetik, leksik və qrammatik normaları, ritorika, akademik yazı, Azərbaycan dilinin funksional üslubları, işgüzar etiket qaydaları,işgüzar yazışma haqqında məlumatları ehtiva etməklə, fikrin yazılı və şifahi şəkildə ifadəsi qaydalarını, xüsusilə, elmi-tədqiqat xarakterli mövzuların işlənməsini və işgüzar üslubda rəsmi-kargüzarlıq sənədlərinin hazırlanmasını əhatə edən mövzulardan ibarətdir. Fənnin tədrisi prossesində Azərbaycan dilinin müxtəlif üslublarına aid yazı növləri yazılır, fikrin yazılı və şifahi şəkildə ifadəsi zamanı ortaya çıxan yanlışlıqlar müzakirə edilir, hər mövzuya aid tapşırıqlar yerinə yetirilir. Bakalavr pilləsi üçün nəzərdə tutulan "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" fənni özünəməxsus dili və forması olan interaktiv bir fənndir. Bu fənn tələbələrin dil sahəsində əldə etdikləri bilik, bacarıq və vərdişlər sisteminə söykənən yeni praktik iş sistemidir. Kursun tədrisinin yekunu olaraq, tələbələr beynəlxalq tələblərə cavab verən müxtəlif üslublu yazılı, şifahi nitq və sənədlərin hazırlanması vərdişlərinə yiyələnirlər. | | |
| **Kursun məqsədləri** | *Azərbaycan dilində özünü şifahi və yazılı ifadə edə bilmə bacarığını formalaşdırmaq;<br>*Azərbaycan dilinin quruluş xüsusiyyətlərini və ondan istifadə qaydalarını aşılamaq;<br>*İşgüzar və akademik kommunikasiyanın növləri haqqında fikir sahibi olmaq;<br>*İşgüzar yazışma və etiket qaydalarını inkişaf etdirməkdir.<br>*Onları hazırlaya bilmək və iş və həyat fəaliyyətində tətbiq edə bilmək;<br>*İşgüzar yazışma vərdişinə yiyələnmək;<br>*Sənədlərin quruluşunu öyrənəcək və analiz edə biləcək;<br>*Akademik yazı qaydalarının strukturunu və məzmununu öyrənmək;<br>*Nitq normalarına əməl etmək, yazılı nitqin fonetik, leksik və qrammatik normalarını mənimsəmək ; | | |

| | |
|---|---|
| | *Məsələləri hədəf olaraq müəyyənləşdirmişdir. |
| **Tədrisin (öyrənmənin) nəticələri** | Kursu tamamlayan tələbələr öyrənəcəklər:<br><br>*Kurs boyu keçilən mövzuları təhlil edə biləcəklər.<br>*İşgüzar və akademik kommunikasiyanın növlərini bir-birindən fərqləndirə biləcəklər.<br>*İşgüzar və akademik kommunikasiyanın növlərini öyrənəcək və onları iş və həyat fəaliyyətində tətbiq edə biləcəklər.<br>*İşgüzar yazışmada etiket qaydalarına əməl etməyi öyrənəcəklər.<br>*Sənəd dili ilə tanış ola biləcək və onları hazırlaya biləcəklər.<br>*Akademik kommunikasiya haqqında fikir sahibi olacaqlar. Terminoloji lüğətlərlə işləmə bacarığı formalaşacaqdır.<br>*Dil normaları və durğu işarələrindən istifadə qaydalarına yiyələnəcək və mədəni nitq vərdişi əldə edəcəklər. |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | Fənnin ümumi qiymətləndirməsi 100 bal üzərində aparılır. Qiymətləndirmə meyarları tələbənin həm nəzəri biliklərini, həm də praktik bacarıqlarını əhatə edir. Hər bir komponent ayrıca nəzərə alınır və tələbənin ümumi nəticəsinə təsir göstərir.<br><br>**Fəallıq**<br><br>Dərslərdə fəallıq tələbələrin öyrənmə prosesində iştirakının qiymətləndirilməsidir. Buraya mühazirə və seminar dərslərində:<br><br>• Müzakirələrdə aktiv iştirak;<br>• Mövzulara dair fikir və arqumentlər irəli sürmək;<br>• Verilən suallara cavab vermək;<br>• Qrup işlərində əməkdaşlıq göstərmək daxildir.<br><br>Dərsdə aktiv olan tələbələr həm əlavə bilik qazanır, həm də qiymətləndirmədə üstünlük əldə edirlər.<br><br>**Aralıq imtahanı**<br><br>Semestrin ortasında keçirilən aralıq imtahanı tələbənin ilk yarımil ərzində əldə etdiyi bilikləri ölçmək üçün nəzərdə tutulmuşdur. İmtahan test, yazılı cavab və ya qarışıq formada ola bilər. Qiymətləndirmədə aşağıdakı meyarlar əsas götürülür:<br><br>• Mövzu üzrə nəzəri biliklərin mənimsənilməsi;<br>• Cavabların dəqiqliyi və ardıcıllığı;<br>• Ədəbi dil normalarına əməl olunması;<br>• Analitik və tənqidi düşünmə bacarığının nümayişi.<br><br>Bu imtahanın nəticəsi tələbənin kurs materialını necə izlədiyini və öyrəndiyini göstərən əsas göstəricilərdən biridir<br><br>**Davamiyyət** |

| | |
|---|---|
| | Davamiyyət tələbənin dərs prosesində mütəmadi iştirakını göstərir. Burada aşağıdakılar nəzərə alınır:<br><br>• Qanuni səbəblər olmadan buraxılan dərslər bal itkisinə səbəb olur;<br>• Tələbənin dərsə gecikməsi də davamiyyətə mənfi təsir edə bilər;<br>• Davamiyyət 75%-dən az olduqda tələbə yekun imtahana buraxılmır.<br><br>Müntəzəm iştirak tələbənin dərs materiallarını daha yaxşı mənimsəməsinə imkan yaradır. Üzrsüz buraxılan 2 dərs üçün 1 (bir) bal çıxılacaq).<br><br>**Tapşırıqlar**<br><br>Tələbələr semestr ərzində müxtəlif tapşırıqlar yerinə yetirirlər. Bunlara esse yazmaq, təqdimat hazırlamaq, işgüzar sənəd nümunələri (ərizə, raport, CV, tərcümeyi-hal) tərtib etmək və ya elmi üslubda qısa referat yazmaq daxil ola bilər. Qiymətləndirmə zamanı aşağıdakı məqamlara diqqət yetirilir:<br><br>• Tapşırığın vaxtında və düzgün formada təqdim olunması;<br>• Mövzunun tam və məzmunlu şəkildə işlənməsi;<br>• Struktura, rəsmi və ya akademik üslub qaydalarına əməl olunması;<br>• Orijinallıq və plagiatın olmaması.<br><br>Bu hissə tələbələrin nəzəri biliklərini praktik mühitdə tətbiq etmə bacarıqlarını inkişaf etdirmək üçün mühüm əhəmiyyət daşıyır.<br><br>**Quizlər**<br><br>Bu üç quiz birlikdə nəzəri bilikləri, tarixi faktları və müasir problemlərə yanaşma bacarıqlarını qiymətləndirir. Həm test, həm qısa cavab, həm də müzakirə suallarının qarışığı tələbələrdə həm reproduktiv (biliklərin xatırlanması), həm də analitik düşünmə qabiliyyətini inkişaf etdirir.Türk dillərinin təsnifatı, qohumluq əlaqələri və əsas dil qrupları haqqında biliklərini yoxlamaq və möhkəmləndirmək məqsədilə təşkil olunacaq. Eyni zamanada türkologiya elminin tarixi inkişaf mərhələlərini, görkəmli alimlərin fəaliyyətini və əsas elmi məktəbləri dərk etməsini əhatə edəcək.<br><br>**Final imtahanı**<br><br>Semestrin sonunda keçirilən yekun imtahan fənnin bütün mövzularını əhatə edir. Bu imtahan tələbənin bilik və bacarıqlarının yekun göstəricisi sayılır. Qiymətləndirmə zamanı:<br><br>• Mövzular üzrə nəzəri biliklərin ümumiləşdirilməsi;<br>• Praktiki situasiyalarda biliklərin tətbiq bacarığı;<br>• Düzgün, əsaslandırılmış və ardıcıl cavabların verilməsi; |

<table>
<tr><td colspan="2"></td><td colspan="2">• Ədəbi dil normalarına uyğun yazı qabiliyyəti nəzərə alınır.<br><br>İmtahan haqqında<br><br>1.İmtahana hazırlaşarkən dərslərdə götürülmüş qeydləri öyrənməklə yanaşı, dərsin iş planında göstərilmiş ədəbiyyatlara, o cümlədən başqa mənbələrə də müraciət etmək lazımdır.<br><br>2. Aralıq və Final imtahanlarında həm açıq, həm qapalı, işgüzar sənədlərin hazırlanması ilə əlaqəli sual formalarından istifadə ediləcəkdir.<br><br>2.Final imtahanında suallar aralıq imtahanından sonra keçilmiş materialların əsasında tərtib olunur.</td></tr>
<tr><td colspan="2"></td><td colspan="2">Cədvəl</td></tr>
<tr><td></td><td>Tarix</td><td>Fənnin mövzuları</td><td>Dərslik/Tapşırıqlar</td></tr>
<tr><td>1</td><td></td><td>“Azərbaycan dilində işgüzar və akademik kommunikasiya” fənninin məqsəd və vəzifələri. Ünsiyyət, kommunikasiya, işgüzar kommunikasiya. İşgüzar kommunikasiyanın formaları. Verbal (şifahi və yazılı) kommunikasiya. Qeyri-verbal kommunikasiya.</td><td>Məmmədli Nadir. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Dərslik. Bakı, “Elm və təhsil”, 2021. (səh.17-57).<br><br>Tapşırıq: Pantomim tamaşadan seçilmiş fraqmentlər izləmək və müzakirə etmək.</td></tr>
<tr><td>2</td><td></td><td>Azərbaycan dili haqqında məlumat. Azərbaycan dilinin və əlifbasının tarixi inkişafı. Azərbaycan dili dövlət dili kimi.<br><br>Müstəqillik qazandıqdan sonra qloballaşma şəraitində dilimizin Dövlət dili səviyyəsində qorunması, tətbiqi və inkişafı ilə bağlı görülən işlər.</td><td>Azərbaycan. Dövlət rəmzləri və atributları. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası. (səh.3-8). https://files.preslib.az/projects/remz/pdf/atr_dil.pdf<br><br>Tapşırıq: “Dilimizi necə qoruyaq ? “adlı tezis hazırlamaq</td></tr>
<tr><td>3</td><td></td><td>Kommunikasiya prosesində Azərbaycan ədəbi dilinin normalar sistemi. Nitq mədəniyyəti konsepsiyası.</td><td>Məmmədli Nadir. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Dərslik. Bakı, “Elm və təhsil”, 2021. (səh.300-335).</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| | | Fonetik hadisələr. Kommunikasiya prosesində intonasiya, vurğu, orfoepik və orfoqrafik qaydalar. Leksik və üslubi norma. Qrammatik norma. | **Tapşırıq :** Sosial şəbəkə mətnləri üzərində iş (norma pozulması hallarının aşkara çıxarılması və s.) |
| 4 | | Azərbaycan dilinin fərdi və funksional üslubları. Bədii üslub. Elmi üslub. Publisistik üslub. Danışıq üslubu.<br><br>Kommunikasiya prosesində üslublardan istifadə. Üslubların səciyyəvi xüsusiyyətləri. Azərbaycan ədəbi dilinin üslublarında diferensiasiya və inteqrasiya halları. | Xəlilov Buludxan. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya.Bakı, “Adiloğlu” nəşriyyatı, 2021. (səh.14-18).<br>Məmmədli Nadir. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Dərslik. Bakı, “Elm və təhsil”, 2021. (səh.423-462).<br>**Tapşırıq :** Müxtəlif üslublara aid olan mətnlər üzərində iş, onlarda olan ortaq və spesifik cəhətlərin aşkara çıxarılması və s. |
| 5 | | Rəsmi-işgüzar üslub və səciyyəvi xüsusiyyətləri. Rəsmi-işgüzar sənədlərin növləri və onların tərtibinə qoyulan hüquq normaları, qaydalar.Elektron sənədlərə dair tələblər.<br><br>Ərizə, növləri və tərtibi zamanı gözlənilməli olan müvafiq tələblər. | Məmmədli Nadir. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Dərslik. Bakı, “Elm və təhsil”, 2021. (səh.462-472).<br>Babayev Adil. Azərbaycan dili və nitq mədəniyyəti.Bakı-2017,səh.505-507<br>**Tapşırıq :** Ərizə yazmaq |
| 6 | | Şəxsi sənədlər. Tərcümeyi-hal və tərtibi zamanı gözlənilməli olan müvafiq qaydalar.<br><br>CV hazırlayarkən qeyd olunmalı məlumatlar: ad, soyad, doğum tarixi və yeri, ünvan, təhsil, iş təcrübəsi, sosial fəallıq və s. CV yazarkən ən çox edilən səhvlər. | Xəlilov Buludxan. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya.Bakı, “Adiloğlu” nəşriyyatı, 2021. (səh.178-186).<br>Babayev Adil. Azərbaycan dili və nitq mədəniyyəti.Bakı-2017,səh.536-538<br><br>**Tapşırıq :** Tərcümeyi-hal və CV hazırlamaq. |

| | | | |
|---|---|---|---|
| 7 | | Kommunikasiya prosesində nitq mədəniyyətinin rolu. Mədəni nitqə verilən tələblər. Nitqin münasibliyi, zənginliyi, təmizliyi, dəqiqliyi və s.<br><br>Punktuasiya və durğu işarələri. Yazılı kommunikasiya zamanı durğu işarələrindən düzgün istifadə. | Məmmədli Nadir. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Dərslik. Bakı, “Elm və təhsil”, 2021. (səh.336-359; 403-422). Babayev Adil. Azərbaycan dili və nitq mədəniyyəti.Bakı-2017,səh.125-130<br><br>**Tapşırıq :** Mətn üzərində iş (buraxılmış durğu işarələrini qeyd eləmək və s.) |
| 8 | | **Aralıq imtahanı.**<br>Elektron işgüzar rabitə. Poçt yazışmaları. Elektron rabitə. Elektron dizayn. E-poçt quruluşu və ölçüsü. Elektron poçt. Elektron poçt nümunəsi. Elektron imza. Məktub yazmağın prinsipləri. Dəstin ümumi qaydaları. | Xəlilov Buludxan. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya.Bakı, “Adiloğlu” nəşriyyatı, 2021. (səh.218-226).<br><br>**Tapşırıq :** Elektron məktub hazırlayaraq müəllimin poçt ünvanına göndərmək. |
| 9 | | İşgüzar ünsiyyətdə dialoq janrları. Dialoq, növləri və meyarları. İşgüzar söhbət. İşgüzar danışıqlar. Görüşlər.<br><br>Mətbuat konfransları. İşgüzar müzakirə, mübahisə etmək mədəniyyəti. İşgüzar görüşlərin vaxtı, məkanı və qaydaları. | Xəlilov Buludxan. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya.Bakı, “Adiloğlu” nəşriyyatı, 2021. (səh.57-77).<br><br>**Tapşırıq :** Gənclər üçün aktual bir mövzuda müzakirə təşkil etmək. |
| 10 | | İşgüzar ünsiyyətdə monoloji janrlar. Monoloji nitq. İctimai nitq. Natiqlər üçün tövsiyələr. Şifahi təqdimatda jestlərin rolu.<br>Layihə hazırlığı və onun təqdimatı. Təqdimat nitqi və onun prinsipləri. Təqdimata diqqəti artırmaq üçün istifadə olunan üsullar. | Xəlilov Buludxan. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya.Bakı, “Adiloğlu” nəşriyyatı, 2021. (səh.78-86; 145-151). |

| | | | |
|---|---|---|---|
| | | | **Tapşırıq :** Tanınmış natiqlərdən biri haqqında təqdimat hazırlamaq. |
| 11 | | İşgüzar ünsiyyət etikası və psixologiyası. İşgüzar ünsiyyətdə təsir üsulları. İşgüzar ünsiyyətdə nitq etiket qaydaları.<br><br>İşgüzar ünsiyyətdə davranışı idarə edən və tənzimləyən fənd. İşgüzar ünsiyyətin vacib psixoloji amili. İşgüzar ünsiyyət üslubunun növləri. | Xəlilov Buludxan. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya.Bakı, “Adiloğlu” nəşriyyatı, 2021. (səh.101-123). |
| 12 | | Rəsmi məktublar. İnformasiya sorğusu nədir və onu necə göndərmək olar? Sorğu metodu. Məktubun tərzi, dizaynı, quruluşu.<br><br>Yazılı mesajların əsas növləri. Təklif məktubu, zəmanət məktubu, təşəkkür məktubu və s. Yazılı işgüzar ünsiyyətin mədəniyyətlərarası ölçüsü. Detalların qeydiyyatı üçün beynəlxalq qaydalar. | Xəlilov Buludxan. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya.Bakı, “Adiloğlu” nəşriyyatı, 2021. (202-217; 238-247).<br>**Tapşırıq :** Hər hansı aktual bir mövzuda informasiya sorğusu aparmaq və nəticəsini təqdim etmək |
| 13 | | Akademik kommunikasiya. Elmi işin tərtibi. Sitatların və mənbələrin göstərilməsi. Elmi işin araşdırma üsulları<br><br>Tələbələrdə tədqiqatçılıq qabiliyyətinin formalaşdırılması. Şifahi akademik kommunikasiyanın monoloji janrları: məruzə, mühazirə, çıxış. | Məmmədli Nadir. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Dərslik. Bakı, “Elm və təhsil”, 2021. (səh.184-198; 206-211).<br><br>**Tapşırıq :** Əvvəlcədən verilmiş mövzuda çıxış hazırlamaq |
| 14 | | Yazılı akademik kommunikasiya. Akademik yazı qaydaları. Akademik yazı növü kimi tezislərin hazırlanmasına qoyulan tələblər.<br><br>Tezislərin quruluşu: xülasə, açar sözlər, giriş, məsələnin qoyuluşu və həlli, nəticə. Tezislərdə elmi yenilik, aktuallıq və s. | Məmmədli Nadir. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Dərslik. Bakı, “Elm və təhsil”, 2021. (səh.211-220; 234-238; 288-290).<br><br>**Tapşırıq :** İxtisasa uyğun aktual bir mövzuda tezis hazırlamaq |

| | | | |
|---|---|---|---|
| 15 | | Akademik yazının növləri.  Yazılı elmi mətnlər. Elmi məqalə, dissertasiya, monoqrafiya və s. Tədqiqat metodları: tarixi-müqayisəli metod, təsviri metod, üslubi metod və s.<br>Dissertasiya və avtoreferata dair tələblər.Monoqrafiyaların hissələri və tərtibinə qoyulan əsas tələblər.  Plagiat barədə məlumat. | Məmmədli Nadir. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Dərslik. Bakı, “Elm və təhsil”, 2021. (səh.227-229; 270-290).<br>**Tapşırıq :** İxtisasa uyğun avtoreferat və dissertasiyalarla tanış olmaq |
| | | **Final** | |